20 YANVAR

Azərbaycan tarixinin ən qanlı səhifələrindən biri - 1990-cı ilin 20 Yanvar gecəsi xalqımızın azadlıq uğrunda apardığı mübarizənin həm faciəsi, həm də qəhrəmanlıq nümunəsidir. Bu hadisə təkcə Sovet rejiminin törətdiyi bir qətliam deyil, həm də xalqın iradəsinin sarsılmaz olduğunu dünyaya nümayiş etdirən tarixi dönüş nöqtəsidir.

Xalqın azadlıq salnaməsi

1987-ci ildən etibarən azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından deportasiyası və Qarabağın Ermənistana birləşdirilməsi cəhdləri vəziyyəti daha da gərginləşdirdi. Ermənistanın təcavüzkar siyasəti, Sovet rəhbərliyinin buna göz yumması və Azərbaycan xalqının haqlı etirazlarını boğmağa çalışması bu gərginliyi pik həddə çatdırdı. Ədalət tələb edən xalqı susdurmaq məqsədilə Sovet hakimiyyəti ən qəddar simasını göstərdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşunları Bakıya yeridildi. Fövqəladə vəziyyət elan olunmadan əvvəl hərbi qüvvələr 82 nəfəri amansızlıqla, ağır hərbi texnika və müxtəlif silahlardan istifadə edərək qətlə yetirdi. 20 nəfər ağır yaralandı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə daha 21 nəfər öldürüldü. Eyni zamanda Neftçala və Lənkəranda yanvarın 25-26-da baş verən hərbi müdaxilələr nəticəsində insanlar həyatını itirdi.

Həlak olanların arasında qadınlar, uşaqlar, qocalar, təcili yardım işçiləri və milis əməkdaşları da vardı. Evlər, avtomobillər, hətta təcili yardım maşınları belə hədəfə alındı. Yandırıcı güllələr nəticəsində dövlət və şəxsi əmlak məhv edildi. Bu qırğın xalqın azadlıq istəyini boğmaq məqsədilə törədilmiş ən böyük cinayətlərdən biri kimi tarixə düşdü.

Yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla həmrəy olduğunu göstərdi və SSRİ rəhbərliyinin bu qanlı əməlini qətiyyətlə pislədi. Ulu öndər faciənin əsl mahiyyətini açaraq, törədilən cinayətlərin hüquq normalarına, demokratiya prinsiplərinə və humanizmə zidd olduğunu vurğuladı: "Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı".

Noyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Heydər Əliyev 20 Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qarşı qəsd kimi dəyərləndirdi: "19-20 yanvar hadisələri Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun diktatorluq meyillərinin nəticəsidir. Bu, həm də Azərbaycan rəhbərlərinin xalqa xəyanətinin göstəricisidir".

20 Yanvar Azərbaycan xalqının tarixində faciə günü, həm də xalqın azadlıq mübarizəsinin simvolu, milli kimliyin formalaşdığı, müstəqilliyin təməl daşlarının qoyulduğu gündür. Sovet İttifaqının ən qəddar hərbi müdaxiləsi Azərbaycan xalqını daha da gücləndirdi.

Yanvarın 22-də Sovet ordusunun amansızlığına və Bakıda fövqəladə vəziyyətin tətbiqinə baxmayaraq, Azərbaycan xalqı öz haqqını tələb etmək üçün küçələrə çıxdı. Azadlıq meydanında 20 Yanvar şəhidlərinin dəfninə qatılmaq məqsədilə keçirilən matəm yürüşü, böyük bir xalqın birliyini, milli vətənpərvərliyini göstərdi. 2 milyona yaxın insan, şəhidlərin xatirəsini əziz tutaraq o günlərdəki məğlubiyyətlərindən bir zəfər doğurdu.

1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Milli Məclisi 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verdi. Qərarda deyilir: "Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet silahlı qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin".

20 Yanvar hadisələrinə hüquqi qiymət verilməsi, xalqın öz şəhidlərinin əziz xatirəsini əbədiləşdirmək, həmçinin bu faciənin nəticələrini gələcək nəsillərə çatdırmaq baxımından vacib bir addım idi.

Azadlıq yolunda canlarını fəda edən qəhrəmanların xatirəsi xalqımızın qəlbində əbədi yaşayır. Bu faciənin acı nəticələri, xalqın iradəsini boğmaq məqsədilə törədilmiş qəddarlıq beynəlxalq tribunalda Nürnberq prosesində pislənmiş hərbi cinayətlərin əlamətləri ilə üst-üstə düşür.

20 Yanvar faciəsi Azərbaycan xalqının mübarizə ruhunu sarsıda bilmədi. Əksinə bu qanlı hadisə xalqın birliyini, azadlıq əzmini daha da gücləndirdi. Şəhidlərin qanı ilə yazılmış bu tarix müstəqillik yolunda qazanılan zəfərin təməl daşı oldu. Bu gün hər bir azərbaycanlı 20 Yanvar şəhidlərinin ruhu qarşısında baş əyir, onların fədakarlığını minnətdarlıqla xatırlayır.

Hər il 20 Yanvar şəhidlərinin xatirəsi Bakıda, həmçinin bütün Azərbaycanda izdihamlı ziyarətlərlə anılır. Xalq istiqlal fədailərinin məzarlarına al qərənfillər qoyur, onların müqəddəs xatirəsini əziz tutur.

Yanvarın 20-də saat 12:00-da Azərbaycanda bir dəqiqəlik sükutla 20 Yanvar şəhidlərinin xatirəsi yad olunur. Dövlət bayraqları endirilir, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir.

Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət ayırır. 20 Yanvar əlilləri və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar. Dövlət başçısının fərmanlarına əsasən 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin və Şəhid ailələri üçün Prezident təqaüdlərinin artırılması bu diqqət və qayğının bariz nümunəsi kimi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Qeyd edək ki, 20 Yanvar şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün Prezident cənab İlham Əliyevin 13 yanvar 2023-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin təqaüdü 2023-cü il 1 yanvar tarixindən 600 manat müəyyən edilmişdir.

Şəhidlərin fədakarlığı hər birimiz üçün əsl vətənpərvərlik nümunəsidir. 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin əldə olunmasında misilsiz hünər göstərərək ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın əziz və unudulmaz xatirəsi qədirbilən xalqımız tərəfindən hər zaman dərin ehtiramla yad edilir, onların ailə üzvləri dövlətin, eləcə də xalqın diqqət və qayğısı ilə əhatə olunur. Bu, o deməkdir ki, bütün şəhidlərimizin xatirəsi xalqımız üçün son dərəcə əziz, onların ailələri isə doğmadır. Azərbaycanın bugünkü və gələcək nəsilləri şəhidlərimizin qəhrəmanlığından nümunə götürəcəklər. Onları qəlbimizdə yaşatmaq, gələcək nəsillərmizə təbliğ etmək bizim hər birimizin vətəndaşlıq borcumuzdur.

Tərənə MƏMMƏDOVA,
Suraxanı rayonu 146 saylı tam orta məktəb.